**Təsdiq edirəm:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

___________________

20.05.2024-cü il

**Dünya Bankı Qrupunun "Business Ready" layihəsinin "Kommunal xidmətlər (su təchizatı)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **I. Elektronlaşdırma və avtomatlaşdırma** | | | | | |
| 1. | Kommunal xidmətlərə (su şəbəkəsinə) qoşulma üzrə xidmətlərin elektronlaşdırılması və təkmilləşdirilməsi | 1.1. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin internet səhifəsinin (www.azersu.az) funksionallığının artırılması və müasir tələblər nəzərə alınmaqla yenidən qurulması | 01.07.2024 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Anar Cəbrayıllı, Cabbar Cabbarlı |
| | | 1.2. Qurumun internet səhifəsində yerləşdirilmiş sahəvi qanunvericilik aktlarının, eləcə də digər aidiyyəti məlumatların aktuallığının nəzarətdə saxlanılması və müvafiq dəyişikliklər nəzərə alınmaqla operativ yenilənməsi | Mütəmadi | | Anar Cəbrayıllı |
| | | 1.3. Elektron Su Portalının (e-su.az) mobil tətbiqinin hazırlanaraq istifadəyə verilməsi | 01.08.2024 | | Cabbar Cabbarlı |
| | | 1.4. "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində, eləcə də Elektron Su Portalında (e-su.az) qoşulmalar üzrə müraciətlərin elektron qaydada "bir pəncərə" prinsipi ilə qəbulu imkanlarının yaradılması | "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası" (Qayda) qüvvəyə mindikdən sonrakı 1 ay ərzində | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1.5. Elektron Su Portalında (e-su.az) qoşulma üzrə prosedurların və mərhələlərin sifarişçi tərəfindən izlənilməsi üçün “Müraciətim haradadır” bölməsinin yaradılması | Qayda qüvvəyə mindikdən sonrakı 1 ay ərzində | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Cabbar Cabbarlı |
| | | 1.6. İstehlakçının FİN kodunun onun əmlakına və su təchizatı üzrə abonent koduna bağlı olması üçün elektron xidmətlər portalında əmlakın qeydiyyat və reyestr nömrəsi ilə sorğulanma imkanının yaradılması | | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi | |
| | | 1.7. Su təchizatı və kanalizasiya sistemlərinə qoşulma ilə bağlı trasın alınması və razılaşdırılması üçün əlaqəli qurumlarla birgə mərkəzi informasiya portalının yaradılması | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Neft Şirkəti (“Azəriqaz” İB), “Azərişıq” ASC, “Azəristiliktəchizat” ASC | Zaur Məmmədov, Cabbar Cabbarlı, Mətin Bədəlov, Rövşən Dəmirov, Namiq Alıcanov, Elbrus Əliyev, Xalid Xuduzadə, Anar Həsənov, Rəşad Abdullayev |
| | | 1.8. Su təchizatı və kanalizasiya sistemlərinə qoşulma haqqının qısa müddət ərzində müəyyən olunması üçün coğrafi informasiya sistemində (CİS) mövcud kommunikasiyalarla bağlı monitorinqlərin aparılması və məlumatların yenilənməsi, CİS və MİS (müştəri informasiya sistemi) məlumat bazalarında təkmilləşmə işlərinin aparılması | Mütəmadi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Cabbar Cabbarlı, Xalid Abbasov, Şahin İmaməliyev, Şöhrət Süleymanov |
| | | 1.9. Su təchizatı və kanalizasiya sistemlərinə qoşulma haqqının anında ödənilməsi imkanının yaradılması | Qayda qüvvəyə mindikdən sonrakı 1 ay ərzində | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank | Yaşar Kəlbiyev, Cabbar Cabbarlı, Mahir Cəfərli |

| | | | | | |
|---|---|---|---|---|---|
| **II. Qoşulmalar və tikinti-quraşdırma işlərinin həyata keçirilməsi** | | | | | |
| 2. | Su təchizatı şəbəkəsinə qoşulmanın mümkünlüyünü qiymətləndirən və quraşdırmaları yerinə yetirən və ya onlara nəzarət edən mütəxəssislərə dair ixtisas tələbləri, satınalma və logistika üzrə planlama və qoşulmalar üzrə onlayn hesabatlılıq | 2.1. Su təchizatı şəbəkəsinə qoşulma sahəsi üzrə ixtisas tələbləri ilə bağlı daxili təlimatların hazırlanması və təsdiqi | Qayda qüvvəyə mindikdən sonrakı 1 ay ərzində | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Yaşar Kəlbiyev, Mahir Cəfərli, Şahin İmaməliyev |
| | | 2.2. Tikinti-quraşdırma işlərinin vaxtında tamamlanması üçün mal-materialların, maşın və mexanizmlərin sahələrə göndərilməsi üzrə tədarük zəncirinin, satınalma və logistika ilə bağlı planlama işlərinin təkmilləşdirilməsi | Mütəmadi | | Murad Abışev, Vüqar Cəfərov, İmran Abbasov |
| | | 2.3. Qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqələrin qurulması, ictimai dinləmələrin keçirilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | Hər rübdə ən azı 1 dəfə | | Anar Cəbrayıllı, Mahir Cəfərli |
| | | 2.4. Su təchizatı və kanalizasiya sistemlərinə qoşulma üzrə müraciətlərin qəbulu, icrası və qoşulmanın təmin olunması üzrə onlayn hesabatlılıq sisteminə uyğun olaraq icra olunan və ya imtina olunan müraciətlər barədə rüblük məlumatların hazırlanaraq Komissiyaya təqdim olunması | Qayda qüvvəyə mindikdən sonra hər rüb | | Mahir Cəfərli |
| **III. Monitorinqlər** | | | | | |
| 3. | Su təchizatı şəbəkəsinə qoşulma ilə bağlı xidmət keyfiyyəti üzrə standartların və hədəflərin mövcudluğu, xidmət təminatının etibarlılığının və keyfiyyətinin monitorinqinin aparılması | 3.1. Su təchizatı şəbəkəsinə qoşulma ilə bağlı xidmətlərin keyfiyyəti üzrə standartlara ciddi riayət olunması, fəaliyyət hədəflərinə nail olunması, habelə xidmət təminatının etibarlılığı və keyfiyyəti üzrə monitorinqlər aparılmaqla nəticələri üzrə zəruri tədbirlərin həyata keçirilməsi, görülmüş işlər barədə məlumatların ictimaiyyətə açıqlanması | Hər rübdə ən azı 1 dəfə | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Mahir Cəfərli, Şahin İmaməliyev, Anar Cəbrayıllı |
| | | 3.2. Qoşulma prosesləri ilə bağlı sahibkarlar arasında sorğuların keçirilməsi, onların üzləşdikləri çətinliklər üzrə monitorinqlərin aparılması, aşkar edilmiş problemlərin aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi və nəticələrinin ictimaiyyətə açıqlanması | Qayda qüvvəyə mindikdən sonra hər rübdə ən azı 1 dəfə | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Anar Cəbrayıllı, Mahir Cəfərli, Şahin İmaməliyev |
| **IV. Şikayət və təkliflər** | | | | | |
| 4. | Su təchizatı ilə bağlı istehlakçıların üzləşdiyi məsələ və problemlərlə əlaqədar müstəqil şikayət mexanizmlərinin mövcudluğu | 4.1. “955 Çağrı Mərkəzi”nə zəng zamanı “audio şikayət” seçiminin yaradılması | 01.07.2024 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Firudin Ağayev, Cabbar Cabbarlı |

| | | | | | |
|---|---|---|---|---|---|
| **V. Ekologiya** | | | | | |
| 5. | Su xidmətlərinin davamlı təminatını təşviq edən ekoloji qaydaların (çirkab suların axıdılmasına nəzarət, suyun keyfiyyətinin idarə edilməsi sistemləri, e-tullantıların idarə edilməsi və s.) mövcudluğu | 5.1. Su ilə bağlı ekoloji standartların yaxşılaşdırılması üzrə qaydaların, eləcə də “Ətraf mühitin idarə edilməsi planı”nın təsdiq edilməsi, icrasının təmin olunması və nəticələri barədə məlumatların Komissiyaya təqdim edilməsi | 01.07.2024 (Qaydaların və planın təsdiq edilməsi)<br>Hər rübdən sonrakı 20 gün ərzində (məlumatların təqdim edilməsi) | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Elmir Məmmədli |
| **VI. Təlim və treninqlər** | | | | | |
| 6. | Qoşulmalar sahəsində çalışan əməkdaşların bilik və bacarıqlarının artırılması, səriştələrinin qiymətləndirilməsi | 6.1. Müvafiq sahədə çalışan əməkdaşlara su təchizatı şəbəkəsinə qoşulmalar üzrə treninqlərin keçirilməsi | Hər rübdə ən azı 1 dəfə | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Möhsüm Quliyev, Ruslan Səfərov |
| **VII. Məlumatlandırma, kommunikasiya və koordinasiya tədbirləri** | | | | | |
| 7. | Vətəndaşların, eləcə də sahibkarların maarifləndirilməsi, onların məmnunluğunun təmin edilməsi və bu sahədə təbliğat işinin aparılması | 7.1. Su təchizatı şəbəkəsinə qoşulma ilə bağlı qaydalar və onlara edilmiş dəyişikliklər barədə sahibkarların məlumatlandırılması, müvafiq məlumatların mediada və sosial şəbəkələrdə yayımlanması | Qayda qüvvəyə mindikdən sonra mütəmadi olaraq | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | Anar Cəbrayıllı |
| | | 7.2. Sudan səmərəli istifadənin, suya qənaət edən cihazların quraşdırılmasının, enerji cəhətdən səmərəli sistemlərin tətbiqinin və təkrar emal (bioloji təmizləmə) qurğularının təşviqinə dair stimullaşdırıcı tədbirlər planının hazırlanaraq Komissiyaya təqdim olunması | 01.07.2024 | | Ceyhun Məmmədov, Mahir Cəfərli |
| | | 7.3. Vətəndaşların, eləcə də sahibkarların tikinti obyektlərinin su təchizatı və kanalizasiya sistemlərinə qoşulması üzrə qaydalar və prosedurlarla bağlı məlumatlandırılması məqsədilə video formatında təqdimatın hazırlanaraq yayımlanması | Hər rübdə ən azı 1 dəfə | | Anar Cəbrayıllı, Mahir Cəfərli |
| | | 7.4. Su təchizatı və kanalizasiya sistemlərinə qoşulma ilə bağlı əsas fəaliyyət göstəriciləri və bu göstəricilərin yerinə yetirilmə səviyyəsi barədə məlumatların ictimaiyyətə təqdim olunması | | | Anar Cəbrayıllı, Mahir Cəfərli, Şahin İmaməliyev, Cabbar Cabbarlı |
| | | 7.5. Özəl sektor nümayəndələrinin, o cümlədən konsaltinq şirkətləri və biznes assosiasiyalarının təmsilçilərinin su şəbəkəsinə qoşulma üzrə ən son yeniliklərlə bağlı məlumatlandırılması üçün Kommunikasiya Strategiyasının hazırlanaraq Komissiyanın Katibliyi ilə razılaşdırıldıqdan sonra təsdiq olunaraq həyata keçirilməsi | 20.06.2024 (Strategiyanın hazırlanması)<br>İl ərzində (Strategiyanın həyata keçirilməsi) | | Anar Cəbrayıllı, Ruslan Səfərov |